*UOT 37.01*

***Turanə Fazil qızı İsmayılova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi,*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı,*
*https://orcid.org//0000-0001-6462-7759*
*E- mail:turanta283@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(6).58-61*

# ALİ MƏKTƏBLƏRDƏ TƏLƏBƏLƏRDƏ TƏNQİDİ TƏHLİL VƏ MƏNBƏLƏRLƏ İŞLƏMƏ BACARIQLARININ FORMALAŞDIRILMASI

***Turana Fazil Ismayilova***
*lecturer at the Azerbaijan State Pedagogical University*
*doctorial student in the program of doctor of philosophy*
*of the Institute of Education of the Republic of Azerbaijan*

# FORMATION OF CRITICAL ANALYSIS AND SOURCE WORKING SKILLS IN STUDENTS IN HIGHER SCHOOLS

***Турана Фазиль гызы Исмаилова***
*преподаватель Азербайджанского Государственного Педагогического Университета,*
*докторант по программе доктора философии*
*Института Образования Азербайджанской Республики*

# ФОРМИРОВАНИЕ У СТУДЕНТОВ ВУЗОВ НАВЫКОВ КРИТИЧЕСКОГО АНАЛИЗА И РАБОТЫ С ИСТОЧНИКАМИ

**Xülasə.** Məqalədə ali məktəblərdə tarix fənninin tədrisi zamanı tələbələrdə kritik düşünmə, mənbələrlə işləmə və tənqidi analiz bacarıqlarının inkişafı məsələləri araşdırılır. Müasir pedaqoji yanaşmalar və metodik vasitələr əsasında bu bacarıqların necə formalaşdırıldığı və tədrisin keyfiyyətinə təsiri təhlil olunur. Məqalədə həm nəzəri əsaslar, həm də praktik tədris nümunələri təqdim olunur. Məqsəd – tələbələrin tarixi hadisələrə obyektiv və çoxşaxəli yanaşmasını, mənbə analizində müstəqil qərarvermə qabiliyyətlərini gücləndirməkdir. Məqalədə bu metodların Azərbaycan tarixi dərslərində tətbiq olunmasının tələbələrin həm akademik uğurlarına, həm də milli-mədəni kimliklərinin formalaşmasına töhfə verdiyi göstərilir.
***Açar sözlər:*** *tarixin tədrisi, kritik düşünmə, tənqidi analiz, ali təhsil, metodika, mənbələrlə iş*

**Abstract.** The article examines the development of critical thinking, working with sources and critical analysis skills in students during the teaching of history in higher education institutions. It analyzes how these skills are formed on the basis of modern pedagogical approaches and methodological tools and their impact on the quality of teaching. The article presents both theoretical foundations and practical teaching examples. The goal is to strengthen students' objective and multidisciplinary approach to historical events and their independent decision-making abilities in source analysis. The article shows that the application of these methods in Azerbaijani history lessons contributes to both students' academic success and the formation of their national and cultural identity.
***Keywords:*** *teaching history, critical thinking, critical analysis, higher education, methodology, work with sources*

**Аннотация.** В статье рассматривается развитие критического мышления, навыков работы с источниками и критического анализа у студентов в процессе преподавания истории в высших учебных заведениях. Анализируется формирование этих навыков на основе современных педагогических подходов и методических средств, а также их влияние на качество преподавания. В статье представлены как теоретические основы, так и практические примеры. Целью является развитие у

студентов объективного и междисциплинарного подхода к историческим событиям и навыков самостоятельного принятия решений при анализе источников. В статье показано, что применение этих методов на уроках истории Азербайджана способствует как академической успеваемости студентов, так и формированию их национально-культурной идентичности.

***Ключевые слова:*** *преподавание истории, критическое мышление, критический анализ, высшее образование, методика, работа с источниками*

**1. Giriş**

Müasir dövrdə təhsil sisteminin qarşısında duran əsas məqsədlərdən biri – tənqidi düşünən, analitik qərar verə bilən, obyektiv nəticəyə gələn tələbə yetişdirməkdir. Xüsusilə tarix fənni bu bacarıqların inkişafı üçün mühüm platformadır. Ənənəvi tədris metodlarında əsas diqqət faktların əzbərlənməsinə yönəldiyi halda, müasir yanaşmalar tələbənin mənbələrlə işləməsi, müqayisə aparması və hadisələri fərqli perspektivlərdən qiymətləndirməsini əsas tutur. Bu məqalədə ali məktəblərdə tarix dərslərində tələbələrdə kritik düşünmə bacarıqlarının inkişaf etdirilməsi yolları, istifadə olunan metod və yanaşmalar təhlil olunur. Ali təhsilin inkişafının müasir tendensiyası onun müəllimdən tələbəyə yönəldilməsini nəzərdə tutur [1, s.145].

2**. Kritik düşünmənin tələbələrin idrak fəallığına təsiri:**

1. Aktiv öyrənməni stimullaşdırır

✓ Tələbələr artıq müəllimin dediyini olduğu kimi qəbul etmirlər.

✓ Məlumatı sorğulayır, müxtəlif mənbələri müqayisə edir, fərqli fikirləri təhlil edirlər.

✓ Bu da idrak fəallığını artırır və dərs prosesində aktiv iştiraklarını təmin edir.

2. Yaradıcı və analitik yanaşmanı inkişaf etdirir.

✓ Kritik düşünən tələbə problemləri fərqli aspektlərdən analiz edir.

✓ Yeni həll yolları axtarır və yaradıcı qərarlar verir.

✓ Bu isə zehni çevikliyi və düşünmə dərinliyini artırır.

3. Əldə edilən biliklər daha davamlı olur

✓ Passiv əzbərləmə ilə müqayisədə, təhlil və müzakirə nəticəsində öyrənilən biliklər yaddaşda daha uzunmüddətli qalır.

✓ Tələbə anlayaraq öyrəndiyi üçün biliklər arasında əlaqə qurur və müxtəlif sahələrə tətbiq edə bilir.

4. Özünüqiymətləndirmə və tənqidi yanaşma bacarığını inkişaf etdirir

✓ Tələbə yalnız başqalarının fikirlərini deyil, öz fikirlərini də sorğulamağa başlayır.

✓ Bu isə reflektiv düşünməni gücləndirir.

5. Qarşılıqlı əməkdaşlıq və diskussiya mühitini formalaşdırır

✓ Kritik düşünmə əsasən dərslərdə tələbələr arasında debat, müzakirə və komanda işini artırır.

✓ Bu isə həm tələbədə sosial bacarıqların, həm də idrak fəallığının gücləndirilməsinə təsir edir.

Tarixi biliklər yalnız informativ xarakter daşımamalı, həm də düşünmə qabiliyyətinin formalaşmasına xidmət etməlidir.

Kritik düşünmə – faktları təhlil etmək, mənbələri qiymətləndirmək, fərqli mövqeləri müqayisə etmək və nəticə çıxarmaq bacarığıdır. Bu bacarığın inkişafı üçün tələbə:

1. Sadəcə "nə baş verdi?" sualına yox,
2. "Niyə baş verdi?", "Kim üçün, necə nəticələndi?" kimi suallara cavab axtarmalıdır.

Y. Kərimov tədqiqatçılıq bacarığının əhəmiyyətini və eləcə də ilkin mərhələdə şagird şəxsiyyətinin formalaşmasına təsirini təhlil edərkən yazır: Tədqiqatçılıq metodu təlimin başlıca yaradıcı metodudur. Bu metod varlığa emosional qiymətləndirici münasibəti inkişaf etdirir [2, s. 235] .

Tarixi hadisələrə çoxşaxəli yanaşma tələbənin tənqidi təfəkkürünü inkişaf etdirir.

3. Ali təhsil müəssisələrində mövcud vəziyyət:

✓ Azərbaycan universitetlərində aparılmış müşahidələr və təhlillər göstərir ki:

✓ Bir çox müəllim hələ də ənənəvi "mühazirə-diktə" metodundan istifadə edir.

✓ Tələbələr tarixi faktları əzbərləyir, lakin səbəb-nəticə əlaqələrini qurmaqda çətinlik çəkirlər.

✓ Tarixi mənbələrlə sistemli iş aparılmır və tənqidi sualvermə mədəniyyəti zəif inkişaf edib.

Bu səbəbdən tədris metodikasında yeniliklərə ehtiyac var.

Pedaqoji prosesdə müstəqil işin mahiyyəti ümumi şəkildə hamı tərəfindən qavranılır, sərbəst müstəqil fəaliyyətə istər idrak , istərsə də əmək fəaliyyətinə hazırlaşmaq , yaxud müstəqil

icraçılıq bacarıqları nümayiş etdirmək kimi başa düşülür [3, s. 76].

4. Effektiv metodik yanaşmalar

4.1. Sorğu əsaslı öyrənmə (Inquiry-Based Learning)

Tələbəyə sual vermək və onu öz cavabını tapmağa təşviq etmək kritik düşünmə bacarığını inkişaf etdirir. Məsələn:

Şah İsmayılın liderlik keyfiyyətləri dövləti qurmaq və qorumaq baxımından nə dərəcədə effektiv idi? Onun hansı qərarlarını siz düzgün, hansını isə riskli hesab edirsiniz?

Təlim məqsədi:

✓ Liderlik və qərarvermə proseslərini qiymətləndirmək

✓ Tarixi şəxsiyyətlərin fəaliyyətini tənqidi qiymətləndirmək

Səfəvilər dövləti ilə Osmanlı imperiyası arasındakı münaqişələrin əsas səbəbləri nələr idi və bu münaqişələr regionun inkişafına necə təsir göstərdi?

Təlim məqsədi:

✓ Beynəlxalq münasibətlərin təhlili

✓ Münaqişələrin iqtisadi, siyasi və mədəni nəticələrini anlama

Səfəvilər dövründə milli birlik və mədəniyyət necə formalaşmışdı? Sizcə, bu prosesin bugünkü Azərbaycan kimliyinə təsiri varmı?

Təlim məqsədi:

✓ Tarixi proseslərin müasir dövrlə əlaqəsini qurmaq.

✓ Milli kimlik və mədəniyyət anlayışlarını analiz etmək.

4.2. Problemləşdirilmiş təlim

Tələbələrə suallar verilir və onların cavab axtarması üçün yön göstərilir. Bu zaman hadisənin sosial, siyasi və iqtisadi aspektləri araşdırılır.

A.V. Petrovski və M.Q. Yaraşevskinin qeyd etdikləri kimi, "qabiliyyətlərin təzahürü insanların tarixən ictimai tələbatlara cavab vermək məqsədi ilə əldə etdikləri müvafiq bilik, bacarıq və vərdişlərin formalaşmasının konkret iş pryomlarından (metodikadan)" bilavasitə asılıdır [ 4, s.433].

4.3. Mənbə əsaslı öyrənmə

Tarixi sənədlər, xatirələr, şəkillər və rəsmi sənədlər əsasında tədris tələbəyə real informasiya üzərində düşünmək imkanı verir. Məsələn, bir sənədin kim tərəfindən, nə zaman və hansı məqsədlə yazıldığını təhlil etmək – kritik düşünmənin əsas elementlərindəndir.

Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və Sumqayıt Dövlət Universitetində aparılan müşahidələrə əsasən:

1. Tələbələr interaktiv tapşırıqlara daha aktiv qoşulur.

2. Tədqiqat və layihə əsaslı təlim zamanı tənqidi düşüncə göstəriciləri yüksəlir.

3. Mənbələrlə işləyən tələbələr daha obyektiv və əsaslandırılmış cavablar təqdim edirlər.

Tarixin tədrisində tənqidi analiz və kritik düşünmə bacarığı tələbələrin yalnız akademik deyil, vətəndaş mövqeyinin də formalaşmasına kömək edir.

Aktiv öyrənmə strategiyalarının tətbiqi: Ali məktəblərdə aktiv öyrənmə strategiyalarının tətbiqi aşağıdakı şəkildə həyata keçirilə bilər:

Problem əsaslı öyrənmə (PBL): Tələbələrə real dünya problemləri təqdim edilərək, onların həlli üçün tədqiqat və əməkdaşlıq etmələri təşviq edilir. Kooperativ öyrənmə: Tələbələr kiçik qruplarda işləyərək, bir-birlərinin fikirlərini dinləyir və müzakirə edirlər, bu da onların tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir . Yaradıcılıq və innovasiya fəaliyyətləri: Tələbələrə yeni ideyalar inkişaf etdirmələri və mövcud problemlərə yaradıcı həllər tapmaları üçün imkanlar təqdim edilir. Ali məktəblərdə tələbələrin idrak fəallığının artırılması və onların tənqidi təfəkkür bacarıqlarının inkişaf etdirilməsi üçün aktiv öyrənmə metodlarının tətbiqi əhəmiyyətlidir. Bu yanaşmalar tələbələrin dərindən öyrənmə qabiliyyətlərini artırır və onların akademik performansını yaxşılaşdırır.

**Problemin elmi yeniliyi.** Səmərəli fikirlər irəli sürülmüş, aparılan araşdırmalar və tədqiqatlar məqalədə öz əksini tapmışdır.

**Problemin aktuallığı.** Ali məktəblərdə yeni təlim texnologiyalarından istifadə ilə tələbələrin tənqidi analiz bacarıqlarının inkişafı imkanlarının araşdırılması mühüm əhəmiyyət kəsb edir. Problem baxımından aktuallıq təşkil edir.

**Problemin praktik əhəmiyyəti.** Pedaqoqlar bu mövzu ilə bağlı tədqiqatlarında materialdan istifadə edə bilər.

## Ədəbiyyat

1. İsmayılova T. Tələbələrin idrak fəallığının yüksəldilməsində Azərbaycan tarixinin tədrisinin mövcud proqram və ədəbiyyatlarda təhlili vəziyyəti // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Əsərləri, 2024. №2, –s.144-147
2. Kazımov, N.M. Məktəb pedaqogikası / N.M. Kazımov. –Bakı: Çaşıoğlu, –2002.
3. Mahmudova, R. Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları. Metodik vəsait. –Bakı: Çaşıoğlu, –2005. –136 s.
4. Seyidov, S.İ. Psixologiya (Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik) / S.İ. Seyidov, M.Ə. Həmzəyev. –Bakı: Nurlan, –2007.

**Redaksiyaya daxil olub:** 29.09.2025